

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 dekabr 2023-cü il №91 (2803) https://mod.gov.az Qiyməti 30 qəpik

# Tarixi Zəfər Günü

## Xalqın müharibəsi, xalqın Zəfəri, xalqın qüruru

*İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərin üçüncü ildönümündə Xankəndidə Hərbi Parad keçirildi. Bu Parad təkcə Zəfərin üçüncü ilini qürurla xatırlama deyil, həm də Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasının qürurudur. Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş Parad da, Zəfər Paradı da, bu Parad da tarixi paradlardır. Dünya ictimaiyyəti hər birini Azərbaycan dövlətçiliyinin dönməzliyinin paradı bildi.*




Hələ İkinci Qarabağ müharibəsindən əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qətiyyətlə deyirdi ki, Azərbaycanda ikinci erməni dövləti yaranmayacaq. Bu qətiyyət Ermənistanı niyyətindən daşındırmalı idi. Lakin Ermənistan sülh danışıqlarından yayınır, işğalın müddətini uzatmaq, regionda mövcud status-kvonu saxlamaq istəyirdi. Ermənistan yeni ərazilər işğal etmək üçün dövlət sərhədlərindən də, işğal etdiyi ərazilərdən də Azərbaycanın ərazilərinə hücumlar edirdi, müxtəlif miqyaslı təxribatlar törədirdi. Azərbaycan Ordusunun hissələri bu hücumların, bu təxribatların qarşısını qətiyyətlə alırdı.

Düşmənin silahlı birləşmələri 2020-ci il sentyabrın 27-də müxtəlif istiqamətlərdən müxtəlif təyinatlı atıcı silahlardan, artilleriya qurğularından istifadə etməklə genişmiqyaslı təxribat törətmək istədi. Ordu hissələrimiz bunun qarşısını qətiyyətlə aldı. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Bu döyüşlər İkinci Qarabağ müharibəsinin - Vətən müharibəsinin başlanğıcı oldu...

Ermənistan işğal etdiyi ərazilərdə müxtəlif səviyyəli mühəndis-istehkam sədləri yaratmışdı. "Ohanyan səddi" adlandırdığı bu sədləri daha da möhkəmləndirirdi, təkmilləşdirirdi. İkinci Qarabağ müharibəsi başlayanda Azərbaycan Ordusu bu sədləri darmadağın etdi, döyüşə-döyüşə mövqe qələbələri qazandı, kəndləri, şəhərləri işğaldan azad etdi. Noyabrın 8-də Şuşa işğaldan azad olundu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il noyabrın 8-də Xankəndidə keçirilən Hərbi Paradda dedi: "...çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər". Şuşanın işğaldan azad edilməsi Vətən müharibəsində Böyük Qələbənin ərəfəsi oldu, noyabrın 10-da Rusiyanın fəal vasitəçiliyi ilə üçtərəfli Bəyanat imzalandı, tarixi Zəfər işğalı sonlandırdı...

2020-ci il dekabrın 10-da Bakıda Azadlıq Meydanında Hərbi parad keçirildi. Bu möhtəşəm parad tarixi Zəfər qazanmış orduya dünyəvi ehtiramı tarixləşdirdi. Həmin parad da təsdiqlədi ki, güc, qüvvət, qüdrət və ədalət həmişə məğlubedilməz olub.

Azərbaycan Ordusu 2023-cü il sentyabrın 20-də əməliyyat tədbirləri ilə ərazi bütövlüyümüzü tam bərpa etdi. Dövlət başçımız Xocalıda da, Əsgəranda da, Ağdərədə də, Xankəndidə də Azərbaycanın Dövlət Bayrağını dalğalandırdı...

2023-cü ilin sentyabr döyüşlərindən sonra Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olundu...

Tarixi Zəfərin üçüncü ilidir. Neçə on illər, yüz illər keçəcək, bu Zəfər həmişə bu ovqatla, bu coşqu ilə qeyd ediləcək. 2023-cü ilin sentyabr döyüşlərindən sonra əsgərlərlə söhbətlərdə yaşadığımız qürur 2020-ci il noyabrın 8-də yaşadığımız qürurun eyni idi. Kəlbəcərdə əsgərlərdən biriinin dediyi kəlmələrdə bir obrazlı düşüncə də vardı: 2023-cü ilin 20 sentyabrında 2020-ci ilin 8 noyabrının ovqatı var. Zəfərin üçüncü ilində həmin söhbəti də xatırlayıram, qalib əsgərlərin əhatəsində yaşanılan anların da tarix olduğuna bir daha əmin oluram.

Noyabrın 8-də Xankəndidə Hərbi Parad keçirildi. Bu paradda iştirak edənlərin qürurunda tarixi Zəfərin qürurunun işığı var idi.

**Mayor Sərdar Əliyev:**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bir fikrini xatırlayıram: "Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik". Bu qətiyyətin davamı Vətən müharibəsi oldu. Vətən müharibəsi Zəfərlə tamamlandı. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat Azərbaycanın qalibiyyətinin, Ermənistanın məğlubiyyətinin hüquqi sənədi idi. Ermənistan bu Bəyanata tam əməl etmədiyinə görə, Kəlbəcərdə, Laçında təxribatlarını davam etdirdiyinə görə Azərbaycan dövləti əməliyyat tədbirləri keçirdi. 2023-cü il sentyabrın 19-da başlayan bu əməliyyat qısa müddətdə başa çatdı, Ermənistan ordusunun dağılmış qalıqları, separatçılar və qeyri-qanuni erməni silahlı dəstələri təslim oldular. Az sonra Xocalıda, Əsgəranda, Ağdərədə, Xankəndidə Azərbaycanın Dövlət Bayrağı dalğalandı. Bu Parad Azərbaycan Ordusunun gücünün təsdiqinin paradıdır. Qürurlanıram ki, belə bir tədbirdə mən də iştirak etdim. Bu günün qürurunu Zəfərin qüruruyla qoşa yaşadacam. Bugünkü Paradın qüruru içində xalqımıza deyirəm: Zəfər gününüz mübarək!..

**Kapitan Kamal Cavadlı:**

- Vətən müharibəsində mən də iştirak etmişəm. Noyabrın 8-ni necə böyük sevinclə yaşadığımızı heç zaman unutmayacağıq. Müharibə iştirakçısı kimi biz də unutmayacağıq, xalqımız da unutmayacaq. Vətən müharibəsi xalqın müharibəsi idi. Hamı qələbə üçün nəsə etmək istəyirdi. Müharibədə mənəvi dəstək də olduqca əhəmiyyətli olur. Döyüşçülər kürəyində xalqın nəfəsini hiss edirdilər. Ona görə daha əzmlə, daha böyük qələbə ruhu ilə döyüşürdülər. Qazanılan mövqe qələbələri xalqın döyüşçülərə inamını artırırdı. Bu inam Qələbə idi.

Vətən müharibəsində döyüşçülərimiz hər döyüşü son döyüş bilib döyüşürdülər. Belə əzm, belə ruh döyüşçülərimizi qələbəyə ruhlandırırdı. Müqavimət əzmi, silahlı birləşmələri dağılmış, qurduğu sədlər darmadağın olmuş düşmən geri çəkilirdi. Kəndlərimiz işğaldan azad ediləndə döyüşənlərimizin qələbə ruhu daha da coşurdu. Bilirdik ki, bu, xalqımızın yaşadığı ən gözəl günlərdir. Daha gözəl gün müharibənin başa çatacağı gün olacaq. Hamımız həmin günün tezləşməsi üçün döyüşürdük.

Xankəndidə keçirilən Paradda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında ordu quruculuğunun dövlət üçün həmişə prioritet olduğunu qeyd edərək bildirdi: "İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq". Paradın digər iştirakçıları kimi bu fikirlər məni də qürurlandırdı. Mən də ordumuzun bu gününün gücü ilə fəxr edir, sabahkı gücünün daha çox olacağına əmin oluram.

Hərbçi taleyimdən razıyam ki, döyüşlərdə iştirak etmişəm, belə bir möhtəşəm tədbirin həm iştirakçısı olmuşam, həm də izləyicisi. Hansı daha qürurludur, iştirakçı olmaq, yoxsa izləyici? Məncə, hər ikisi. Hər ikisi ayrılıqda da gözəldi. Azərbaycan dövlətçiliyində olduqca əhəmiyyətli olan bu tarixi gün münasibətilə hamını təbrik edirəm...

**(Ardı 3-cü səhifədə)**

# Parlamentdə hərbi qulluqçularla bağlı bir sıra qanunlara dəyişikliklər müzakirə olunub





Noyabrın 29-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan komitə sədri Musa Quliyev gündəliyə "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəsinin daxil edildiyini deyib.

Komitə sədri bildirib ki, müzakirəyə təqdim edilən qanun layihəsi Silahlı Qüvvələrimizin daha da güclənməsi, hərbçilərin kadr hazırlığı, təhsili, xidmətkeçmə, sosial müdafiə və pensiya təminatları sahəsində hüquqi bazanın möhkəmlənməsi məqsədilə hazırlanıb.

Komitənin üzvü Arzu Nağıyev qanun layihəsinə təklif olunan dəyişikliklər barədə ətraflı məlumat verib. O bildirib ki, qanun layihəsi hərbi qulluqçuların pensiya hüququ, təhsil almaq hüququ və xidmət keçmə müddətləri ilə bağlı dəyişiklikləri nəzərdə tutur.

Hərbi qulluqçuların potensialından daha uzun müddət və səmərəli istifadə edilməsinə yönəlik dəyişikliklərdən danışan Arzu Nağıyev diqqətə çatdırıb ki, sənəddə hərbi qulluqçuların təhsil almaq imkanları genişləndirilir. O, layihədə qadınların həqiqi hərbi xidmətdə ehtiyatda olmalarının son yaş hədlərinin kişi cinsli hərbi qulluqçularla bərabərləşdirilməsinin gender bərabərliyinin təmininə xidmət etdiyini deyib. Hərbi qulluqçuların təcrübəsindən daha səmərəli və uzun müddət yararlanmaq üçün qanun layihəsində təsbit olunan müddəaları diqqətə çatdıran Arzu Nağıyev vurğulayıb ki, sənəddə dövlət tərəfindən hazırlanmasına zaman və resurs sərf edilmiş hərbi qulluqçuların formalaşmış təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədilə hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması hərbi qulluqçuların pensiya təminatında hər hansı azalmanı istisna etməklə, bir sıra qurumların hərbi qulluqçularının pensiya təminatında artımı nəzərdə tutur. Belə ki, minimum xidmət müddətinin artırılması ilə yanaşı, həmin dövrə görə qulluq stajına görə əlavənin faizinin də 50-dən 65-ə qaldırılması təklif edilib.

Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi Elçin Əliyev qanun layihəsinin hazırlanması prosesindən danışıb. O vurğulayıb ki, parlamentin müzakirəsinə təqdim olunmuş layihə hərbi qulluqçuların potensialından daha uzun müddət və səmərəli istifadə edilməsinə, onların peşəkarlığının və sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri Elnur Abbasov qanun layihəsinin hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinin və pensiya təminatının möhkəmləndirilməsinin daha səmərəli təşkilinə imkan yaratdığını bildirib.

Sənədin müzakirəsində deputatlar Rauf Əliyev, Vüqar Bayramov, Aqil Məmmədov, İlham Məmmədov və Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid çıxış edib, layihə ilə bağlı fikirlərini bildiriblər.

Sonda qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Hərbi hüquqşünaslarla təlim-metodiki toplanış keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin fəaliyyət planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun növü, baş idarə, idarələrin hüquqşünasları və təhqiqatçıları, həmçinin Hüquq İdarəsinin zabitləri ilə təlim-metodiki toplanış keçirilib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanışda çıxış edən idarə rəisi polkovnik Elçin Əliyev il ərzində görülən işlərdən geniş söhbət açıb, hərbi qulluqçularla bağlı bir sıra qanunlarda dəyişiklik edilməsini nəzərdə tutan və hazırda parlamentin müzakirəsində olan yeni Qanun layihələri barədə toplantı iştirakçılarına geniş məlumat verib.

Bildirilib ki, ölkəmizin müdafiə qabiliyyətinin və ordumuzun daha da güclənməsi məqsədilə hazırlanan yeni islahatlar hərbi qulluqçuların potensialından daha uzun müddət və səmərəli istifadə edilməsinə xidmət edir. Hərbi qulluqçuların peşəkar inkişafı üçün məqsədyönlü işlər aparılır, onların ölkəmizdə və xarici ölkələrdə ixtisaslarına uyğun təhsil almaları təmin edilir. Mövcud qanunvericilikdə hərbi qulluqçuların mülki təhsil müəssisələrinin yalnız qiyabi şöbələrində təhsil almaq hüquqları olduğundan yeni qanun layihələrində onların xidməti fəaliyyəti, hərbi xidmət mənafeyi nəzərə alınmaqla, peşəkar inkişafı, bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə təhsil imkanlarının daha da genişləndirilməsi təklif edilir.

Eyni zamanda, təhsil dövrlərinin onların öz arzusu ilə ehtiyata buraxılma müddətinə daxil edilməməsi təklif olunub ki, bununla da dövlət tərəfindən təhsilinə zaman və resurs sərf edilmiş həmin hərbi qulluqçuların əlavə təhsil alaraq öz bilik və bacarıqları ilə ordumuzun inkişafına töhfə verməkdə davam etmələrinə şərait yaradılması da nəzərdə tutulub.

Qanun layihələrində, həmçinin gizir, miçman və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün xidmətdə olmanın son yaş həddinin 45-dən 48-ə çatdırılması təklifi öz əksini tapır. Yeni islahatın tərkib hissəsi kimi, hərbi qulluqçuların pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması da nəzərdə tutulub.

Hazırda 25 təqvim ili hərbi xidməti olan hərbi qulluqçuların təminat xərcliyinin 60 faizini pensiya kimi alması, lakin yeni layihələr qəbul olunduğu halda bu xərcliyin 5 faiz çox olmaqla 65 faizini alacaqları, bununla da pensiya təminatında hər hansı azalmanın olmayacağı qeyd edilib.

Bundan başqa, mülki işlərlə bağlı stajları olan hərbi qulluqçuların da həmin dövrün hər ili üçün 1 faiz əlavə hesablanması da layihədə nəzərdə tutulub.




Qeyd olunanlarla yanaşı, azı 17 təqvim ili xidmət etmiş hərbi qulluqçu 25 təqvim ilini tamamlayanadək xidmətdən buraxıldığı halda, onun əvvəlki normalara uyğun olaraq 20 təqvim ili xidmət etdiyinə görə hərbi qulluqçu kimi pensiya hüququ əldə etməsi, yəni, ötən dövrdə qazanılmış pensiya hüquqlarının yeni dəyişikliklər qəbul edildikdən sonra da təmin olunması nəzərdə tutulub.

İdarə rəisi bildirib ki, hərbçilərə xüsusi qayğı olaraq onların sosial müdafiəsinin gücləndirilməsi, təminat xərcliyinin artırılması və hərbçilərin maddi rifah halının yaxşılaşdırılması üçün ardıcıl addımlar atılır. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Fərmanı ilə növbəti artım olaraq 2024-cü il yanvarın 1-dən hərbi qulluqçuların aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılacaq. Hərbçilərin xidmətdə olma müddətinin artırılması həmin şəxslərin mütəmadi artan təminat xərcliyini almaqda davam etməsinə imkan verməklə yanaşı, eyni zamanda, onların yekunda daha çox pensiya almasına şərait yaradır.

Təlim-metodiki toplanışda hərbi hissələrdə hüquq hazırlığının daha səmərəli təşkili, hərbi qulluqçuların hüquqi cəhətdən maarifləndirilməsi və digər mövzular üzrə məruzələr, hüquqşünaslar və təhqiqatçıların cari il ərzində hüquq xidmətinə dair gördükləri işlərlə bağlı hesabatlar dinlənilib, növbəti il üçün qarşıda duran vəzifələrdən danışılıb.

Toplanış iştirakçılarının hüquq hazırlığının təşkili üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, qanunvericiliyin və rəhbər sənədlərin tələblərinin öyrənilməsi məqsədilə keçirilən təlim-metodiki toplanışda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Tarixi Zəfər Günü

## Xalqın müharibəsi, xalqın Zəfəri, xalqın qüruru

(Əvvəli 1-ci səhifədə)

**Baş leytenant Murtuz Rüstəmli:**

- Digər hərbi qulluqçular kimi, mən də 2020-ci ilin sentyabrına qədər Ali Baş Komandanın döyüş əmrini arzulayırdım. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başladı. Mənim xidmət etdiyim hərbi hissə də döyüşlərə cəlb olundu. Müharibədə zabit də döyüşçü olur. Düşmənin səddlər darmadağın ediləndə, ilkin mövqe qələbələri qazanılanda digər döyüşçülər kimi, mən də Qələbə gününün tezləşməsini arzulayırdım. Bu arzulama daha qətiyyətlə döyüşmək idi. Biz də qazanılan qələbələri sonrakı döyüşlərin başlanğıcı bilirdik.

Döyüşçülərdən biri şəhid olmuşdu. Onda onlar qətiyyətlə bildirdilər ki, şəhidimizi də sıramızda bilib döyüşəcəyik. Növbəti döyüşü onun ruhuna gözaydınlığı döyüşü bilib döyüşdük. Mühüm mövqe qələbəsi qazandıq. Sonrakı döyüşlərimizi bütün şəhidlərimizin ruhuna ad elədik. Komandirlərimiz niyyətimizi dəstəklədilər...

Tarixi Zəfər qazandıq. O Zəfərin davamı 2023-cü il sentyabrın 19-da keçirilən əməliyyat tədbirləri oldu. Bu gün ərazi bütövlüyümüzün tam bərpa olunmasının sevincini yaşayırıq. Bu sevinc içində Xankəndidə Hərbi Parad keçirildi. Bu Paradda mən də iştirak etdim. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Paradda dedi: "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, 8 Noyabr kimi". Bu qüruru Paradda yaşamaq necə xoş oldusa, Parad haqqında danışmaq da elə xoşdur. Mən bu xoş ovqatı ömrümün ən dəyərli günlərindən biri hesab edirəm. Bütün Parad iştirakçılarını, ordumuzun şəxsi heyətini, xalqımızı Zəfər günü münasibətilə təbrik edirəm...

**Baş leytenant Kənan Yusifli:**

- Vətən müharibəsi xalqımızın müharibəsi idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xankəndidə keçirilən Hərbi Paradda bu Zəfəri ən böyük tarixi hadisə adlandırdı. Bu Zəfərin qüruru təkcə Azərbaycanda yaşanılmadı, Azərbaycana ehtiramı olan bütün dövlətlərdə yaşanıldı. Bu qürur həmişə yaşanılacaq.

Dövlət başçımız Xankəndidə Paradda dedi: "Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir". Bu fikirlər ordu gənclərinin, ümumən gənclərin həyat fəlsəfəsi olacaq. Mən bu Paradın iştirakçısı kimi xidmət yoldaşlarımla söhbətlərimdə Parad təəssüratlarımı danışanda bu fikirlərdən də söz açacam.

Həm 2020-ci ilin 8 Noyabrına, həm 2023-cü ilin 20 Sentyabrına, həm də 2023-cü il Noyabrın 8-də Xankəndidə keçirilən Hərbi Parada görə xalqımızı təbrik edirəm...

Xankəndidə keçirilən Hərbi Parad ədalətin bərpasının paradı kimi tarixləşdi. Ədaləti qüdrətli Azərbaycan Ordusu bərpa etdi. İkinci Qarabağ müharibəsində tətbiq edilən döyüş taktikası dünya hərb tarixində yenilik kimi müxtəlif ali hərbi məktəblərin dərsliklərinə salınıb. Qərbin bir sıra mətbu orqanlarında, eləcə də ABŞ-ın bir sıra analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilir. Bugünkü Parad həm də bu marağın, bu ehtiramın Paradı oldu...

Zəfər günü Xankəndidə keçirilən Hərbi Parad dövlətçilik paradı idi...

Mayor
**Məhəmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu"**

*Ovqat*

## Vətən müharibəsi Vətəndən uzaqda da Vətən üçün yaşanılırdı

*İkinci Qarabağ müharibəsi kimi başlayıb Vətən müharibəsi kimi davam edən müharibə Azərbaycanın sərhədlərindən kənarda da azərbaycançılıq heysiyyəti ilə izlənilirdi; qazanılan mövqe qələbələri Azərbaycanı sevənlərə sevinc yaşadırdı. Hər azərbaycanlı, Azərbaycana rəğbəti olan hər xarici ölkə vətəndaşı özünü ruhən döyüşənlərin sırasında hiss edirdi. Türkiyənin o vaxtkı müdafiə naziri Hulusi Akarın dediyi "Türkiyə hər zaman Azərbaycanın yanındadır" kəlamı Türkiyənin Azərbaycan sevgisinin ifadəsi kimi tarixləşmişdi...*

Azər Abdullayev Mingəçevirdə anadan olub, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirib, müxtəlif hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib.

Polkovnik-leytenant Azər Abdullayev 2019-cu ildə akademik hərbi təhsil üçün Türkiyəyə - Milli Müdafiə Universitetinə ezam edilmişdi. İkinci Qarabağ müharibəsinin başladığını orada eşitmişdi. Ürəyi polkovnik-leytenant Azər Abdullayevi də Vətən müharibəsinə çəkmişdi. Azərbaycana qayıtmaq, döyüşənlərin sırasında olmaq istəmişdi. Zərurət olmadığına görə təhsilini davam etdirməyi məsləhət görmüşdülər.

Vətən müharibəsinin ilk gününün həyəcanını Türkiyə Milli Müdafiə Universitetinin türkiyəli müdavimləri ilə nəfəs-nəfəsə yaşadı. Ordumuzun düşmənin işğal müddətində yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi sədləri darmadağın etməsi, ilkin mövqe qələbələri qazanması azərbaycanlı zabitin qüruruna dönmüşdü. Türkiyəli hərbçilər onu Azərbaycan adına bayraqlaşdırmışdı, "Bu qələbələr həm də bizim qələbələrimizdir!" demişdilər. Azər Abdullayev Mehmet Okan Paşaya bir xahişlə müraciət etmişdi: Azərbaycanın ədalətli müharibəsi haqqında müdavimlərə geniş məlumat vermək istəyirəm, rəhbərliyin razılığını alın. Razılıq verildi. Hər gün dərslərdən əvvəl mahiyyəti informasiya vaxtı olan yarım saatlıq müddətdə Azərbaycanın ədalətli müharibəsinin gedişindən, qazanılan qələbələrdən danışırdı. Bu, müəyyən mənada, Azərbaycanın Vətən müharibəsinin döyüşlərindən sistemli, dəqiq informasiya çatdırma missiyası idi. Bəzən həmin 30 dəqiqənin içində, bəzən tənəffüslərdə, fasilələrdə, bəzən də dərslərdən sonra müdavimlər ona suallarla müraciət edirdilər. Hər sual öyrənməyə, bilməyə yönəlsə də, mahiyyəti baxımından Azərbaycana, Azərbaycanın ədalətli müharibəsinə, bəşəri mübarizəsinə rəğbət idi. Oktyabrın 17-də Ermənistan Gəncəyə ballistik raketlər atmışdı. Binalar dağıdılmışdı, insanlar həlak olmuşdular. Bu ağrıları Milli Müdafiə Universitetinin azərbaycanlı, türkiyəli müdavimləri ilə bir sırada pakistanlı, Cənubi koreyalı, somalili, gürcüstanlı, ... mü-



davimlər də yaşayırdılar. Səhərisi gün Azər Abdullayev müdavimlərə ermənilikdən, erməni xislətindən danışdı. Gəncə faciəsi haqqında öyrəndiklərini ümumiləşdirib bitkin məlumat verdi. Pakistanlı zabit Mühəmməd Dovi müdavimlər adından dedi: Hamımız Azərbaycanın haqlı olduğunu, ədalətli müharibə apardığını bir daha dərk etdik. Onu da dərk etdik ki, Ermənistan işğalçı dövlətdir. Gəncəyə raketlər atmasını dünya ictimaiyyəti lənətləməlidir...

Həmin gün müdavimlərin hadisəyə münasibət bildirməsi üçün vaxt şəraiti yaradılmışdı. Cənubi koreyalı zabit-müdavim Kim Cu Yanqo Azər Abdullayevə həm müdavimlər adından, həm də təmsil etdiyi ordunun şəxsi heyəti adından başsağlığı vermişdi. Kövrək anlar yaşanılmışdı. Həmin gün informasiyalar Gəncə faciəsini əhatələmişdi. Məlumatlar həm də texniki vasitələrdən istifadə edilməklə, görüntülərlə təqdim olundu. Kim Cu Yanqo döyüşlərdən 100 kilometrlərlə uzaqlarda törədilən bu cinayəti bəşəriyyətə qarşı törədilmiş cinayət adlandırdı. Qəhərlə Azər Abdullayevdən dağıntılar arasında körpə uşağın oyuncaqlarının görüntüsü olan şəkli xahiş etdi. "Mənim ölkəmdə də bu vəhşiliklər haqqında gerçək məlumatlar olsun", - dedi...

Polkovnik-leytenant Azər Abdullayev Azərbaycana, Azərbaycanın ədalətli müharibəsinə rəğbəti olan müdavimin xahişini yerinə yetirdi. Müdavim-zabit şəklə baxanda kövrəkliklə, "Bu şəkli görənlər heç zaman bu müharibəyə görə "Kim haqlıdır?" sualını verməz", - dedi. Kaş müdavim-zabitin qəhərini Ermənistana siyasi və hərbi yardım edən dövlətlər də görəydilər, bəşəriliyin nə olduğunu dərk edəydilər. Bəlkə onda müharibə cinayətinə görə canilərə bəşəri hökm tələb edənlərin sırasında onlar da olardılar...

Milli Müdafiə Universitetində qırxdan çox ölkədən yüzlərlə müdavim akademik hərbi təhsil alırdı. Bir-birilərini ilə tanışlıq təmsil etdikləri dövlətlərin tanışlığı idi. Azərbaycanı tanımayanlar da, bəlkə də onun varlığından xəbəri olmayanlar da vardı. Azərbaycan Ordusunun zabiti Azər Abdullayev gündəlik müharibə informasiyaları verməklə bu missiyanı da yerinə yetirirdi.

"Vətən müharibəsində Vətəndən uzaqda Vətən üçün nəsə etmək istəmişdim, Mehmet Okan Paşanın köməyi ilə buna nail olmuşdum. Vətən müharibəsinin xronikasını geniş formatda Universitetdə akademik hərbi təhsil alan müdavimlərə çatdırırdım. 40-dan çox dövləti təmsil edən müdavim-zabitlər Azərbaycan həqiqətlərini ətraflı dərk edirdilər. Somalili zabit-müdavimin xahişi məni də, türkiyəli müdavim-zabitləri də duyğulandırdı: Azərbaycana, döyüşənlərə çatdır ki, biz - müdavimləri göstərmişdi - onların qalib gələcəyinə inanırıq.

Azər Abdullayev Azərbaycanı daha əhatəli tanıtmaq məqsədi ilə Azərbaycanın dövlətçilik tarixini əhatələyən geniş məlumat-bilgi hazırladı. Ermənilərin Azərbaycanda nə vaxtdan və necə məskunlaşması haqqında da danışmağı, Ermənistanın Azərbaycandan ərazi iddiası haqqında da informasiya verməyi qətiləşdirdi. Seminar formatında keçiriləcək bu tədbir üçün bütün texniki şərait yaradıldı. Belə bir seminarın keçirilməsini Universitetin rəhbərliyi Azərbaycan Ordusunun apardığı ədalətli müharibəyə mənəvi dəstək bildi. Azər Abdullayev seminarda saytlardan istifadə etməklə Azərbaycanda Ermənistanın başladığı Birinci Qarabağ müharibəsinin səbəblərini şərh etdi, ermənilərin törətdiyi Bağanis-Ayrım, Başlıbel, Ağdaban, Malıbəyli, Meşəli, Xocalı faciələrini xatırlatdı. Bu, elmi seminar idi. Azərbaycanlı zabitin Azərbaycanın sərhədlərindən kənarda nüfuzlu hərbi təhsil müəssisəsində təşkil etdiyi seminar! Faktlarla, sənədlərlə, foto-video materiallarla müşayiət olunan bu seminarın məsləhətçisi - Mehmet Okan Paşanın məsləhəti ilə sonra yeni bir seminar da təşkil olundu. Hər iki seminarda hərbi-publisistik mahiyyəti ilə Azərbaycan həqiqətləri əhatəli və gerçəkliklə şərh olundu.

Polkovnik-leytenant Azər Abdullayev deyir ki, Vətən müharibəsində Vətəndən uzaqda Vətən üçün yaşanılanlar da Vətənə görə idi...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib

"Əlahiddə Ümumqoşun Ordunun 2023-cü il döyüş hazırlığı planı"na əsasən, tabelikdə olan birləşmə və hissələrlə ərazidə və Simulyasiya Mərkəzində kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib.

Komanda-qərargah təliminin birinci mərhələsi bölmələrin müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilərək "Həyəcan" siqnalı ilə təlim rayonlarına çıxarılması ilə başlayıb.

Açılmış səhra və stasionar döyüşü idarəetmə məntəqələrində üst komandanlıqdan alınmış tapşırığa əsasən əməliyyatların planlanmasına başlanaraq optimal qərarın qəbulu üçün hərbi qərar qəbuletmə prosesinə uyğun fəaliyyətlər icra olunub.



Qərargahlar tərəfindən əməliyyatların planlaşdırıldığı ərazinin döyüş sahəsinin kəşfiyyat hazırlığı aparılıb, düşmənin və öz bölmələrimizin ağırlıq mərkəzləri, qəti nəticə nöqtələri təyin edilərək arzu olunan son nəticənin əldə edilməsi üçün hazırlanan müxtəlif fəaliyyət tərzləri komandirin qərarı olaraq seçilməsi məqsədilə hərb oyununda sınaqdan keçirilib.

Hərbi hissələrin əməliyyat planlarının hazırlanması, aidiyyəti üzrə əmrlərin çatdırılması, eləcə də bölmələrin idarə olunması və aşkar olunmuş hava düşməninin məhv edilməsi üçün verilən məlumatların müasir texniki vasitələr üzərindən bölmələrə çatdırılması məşq etdirilib.

Təlimin gedişində xüsusi təyinatlı bölmələrin vasitəsilə vizual müşahidə və havadan kəşfiyyat aparılaraq şərti düşmənin döyüş mövqeləri və yaxın dərinlikdəki vacib obyektləri qiymətləndirilib. Əldə olunmuş kəşfiyyat məlumatları analiz edilərək manevr bölmələrinin döyüş meydanında hədəfə doğru sürətli və dəqiq irəliləməsi üçün onların qərargahlarına çatdırılıb.

Yuxarı qərargahdan alınmış döyüş əmrinə əsasən, tank və mexanikləşdirilmiş bölmələr şərti düşmənin yerləşdiyi əraziyə hücum tapşırığını icra edib. Burada əsas diqqət düşmənin təminat yollarının və ehtiyatlarının yaxınlaşma istiqamətlərini görən hakim yüksəkliklərin ələ keçirilməsinə yönəldilib.

Təlimin ikinci mərhələsi qərargahlar tərəfindən qəbul edilən qərarların real ərazidə icra olunma mümkünlüyünü, komandirlərin döyüş meydanında tabelikdə olan bölmələrini idarəetmə bacarıqlarını, atəş-dəstək vasitələrinin effektiv istifadəsini və hərtərəfli təminatın döyüşün bütün mərhələlərində təşkilini praktiki görmək məqsədilə Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması ilə keçirilib.

Müxtəlif qoşun növü birləşmələrinin birgə fəaliyyəti nəticəsində qarşıya qoyulmuş məqsədlərə nail olunduğu təlimin yekununda qoşunların döyüşə hazırolma vəziyyətinə gətirilməsində və əməliyyatların planlaşdırılmasında qərargahların hazırlıq səviyyəsi yüksək qiymətləndirilib.







# Mədəniyyət paytaxtından baxaq dünyaya!..

Türk dünyasının birinci mədəniyyət paytaxtı Astana şəhəri seçilmişdi. Sonra Əskişəhər (Türkiyə), Kazan (Tatarıstan), Mari (Tacikistan), Şəki (Azərbaycan), Türkistan (Qazaxıstan) şəhərləri seçilib. Bu seçimlər kifayət qədər dərin təhlillərlə əsaslandırılmış təqdimatlarla gerçəkləşir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin mədəniyyət nazirlərinin daimi Şurasının növbədənkənar iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev Şuşanı abidələr şəhəri adlandırırdı. Abidə mədəniyyətin simvoludur. TÜRKSOY-un bu seçimi gerçəkliyin seçimidir və belə seçimlər həmişə daha qürurlu olur. İşğaldan qurtuluşunun üçüncü ilində türk dünyasının mədəniyyətləri dünyaya ayrılıqda da, ortaqlıqda da, vəhdətdə də Şuşadan baxır. Dünya bu seçimi bəyənmişdi, dəyərləndirmişdi. Mədəniyyətlərin yaxınlığı, bəzən oxşarlığı, bəzən eyni başlanğıcdan rişələnməsi onların vəhdətdə yaşadılmasını zəruriləşdirir. Türkdilli xalqların dastanlarını ümumiləşdirən qəhrəmanlıqlar bu xalqların ruhunun nəinki yaxınlığı, bəzi məqamlarda eyniliyi kimi tə-zahür edir. Bir xalqın qədim dastanında digər türkdilli xalqın dastanının izi hiss olunur; dastanlar mədəniyyətin ilkini, başlanğıcıdır.

Şuşa dəniz səviyyəsindən təxminən 1600 metr yüksəklikdə salınıb, bünövrəsi dağlardı. Ona dağlardan dikələn şəhər də deyilə bilər. Bir vaxtlar şəhəri (Qala da deyilərdi) tanıdan dağlar sonra şəhərin adıyla tanındı: Şuşanın dağları. Qala-şəhər tarixin salnaməsidi. Divarları da, qapıları da, divar boyu günbəzləri də, məscidləri də, hamamları da, dolama yolları da, dağlara sarılan cığırları da, ... Hələ Cıdır düzü! Hələ İsa bulağı!..



Şuşada daş dövrünə aid mağara düşərgə olub: Şuşa mağara düşərgəsi. Daşaltı çayının dərəsində, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə. Uzunluğu - 120 metr, eni - 20 metr. Mağaranın qarşısında qalın daş istehkamlar, qala və bina divarları olub. Yəni, qədimliyin, çox qədimliyin nişanələri qalırdı. 1992-ci ilə kimi qalırdı. Sonrakı dövrlərdə, burada şəhər salınanda, Pənahəli xanın yeni qalası tikildikcə böyüyən, böyüdükcə tikilən şəhər gözəlləşirdi. Şəhərin özü möcüzəydi, tikililər də möcüzə ülgüsündə tikilirdi. Sərraf səyyahlar Şuşanı muzey-şəhər görkəmində görürdü; Şuşada Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, ... fəaliyyətdeydi...

12 məhəllə, 12 məscid, 12 bulaq - şəhərin gözəllik nişanələri beləydi. Cıdır düzü bu gözəlliyi dörd yanına səm eləmişdi. Bir yandan da Topxana...

Sovetlər dönəmində Şuşanın mədəni siması süslənmişdi, burada Vaqifin məqbərəsi inşa edilmişdi, Natəvanın, Üzeyir bəyin, Bülbülün ev-muzeyləri yaradılmışdı, büstləri qoyulmuşdu, "Vaqif poeziya günləri"nin şeiriyyətinin doğmalığı Şuşanın göylərinə sərilirdi, "Xarıbülbül" festivalında ifa edilən muğamlar, xalq mahnıları Şuşadan çox-çox uzaqlarda da bir gerçəkliyin carçısına dönürdü: Varıq, var olacağıq!

Ermənilər Şuşanı işğal etmişdi, xalqın ruhuna yaxın düşə bilməmişdilər. Şuşa işğaldan 2020-ci ilin 8 Noyabrında xalqın müharibəsiylə azad edildi. Vaqifin məqbərəsi əvvəlki biçimində bərpa edildi, 2021-ci il avqustun 29-da açılışı oldu. Erməniliyi zəbun edən ruhun qüdrəti kimi!

1989-cu ildə Seyid Şuşinskinin anadan olmasının 100 illiyinə Şuşada "Xarıbülbül" musiqi festivalı keçirilmişdi. 2022-ci ilin mayında keçirilən "Xarıbülbül" beynəlxalq musiqi festivalı tarixi bir gerçəkliyin dönməzliyi kimi izlənildi: Azərbaycan deyiləndə ayağa dur, dəli dünya! Ayağa dur ki, gerçəklikləri dürüst görəsən! "Heyratı"da heyrətə düşəsən, "Osmanı"da qəhrəmanlığın oxumalarını dinləyəsən, "Segah"da düşünəsən, "Rast"da bu xalqı yenidən tanıyasan, "Arazbarı"nı eşidincə yamanlığa tövbə deyəsən, ... TÜRKSOY bunlara görə Şuşanı "Türk dünyasının mədəniyyət paytaxtı" elan edib. Elan edib ki, Şuşanın musiqi dünyasının sehrindən baxılsın sabahlara. Dünya "haqqa düşmən olanı haqqa tapındıran muğamlar"ın (Bəxtiyar Vahabzadə) fəlsəfəsini dərk eləsin ki, Əhrimənlik bir daha baş qaldırmasın...

Tarixdən aldığım bilgi belədi: XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 16 rəssam, ... yaşayıb. "Su axmış arxdan bir də axar" deyiminin gerçəkliyinə zərrəcə şübhəmiz yoxdu. Şuşadan uzaq düşənlər Şuşadan iraq düşməmişdi. Beynəlxalq türk Mədəniyyəti Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin daimi Şurasının başlanğıcı bu rəqəmlərin də zəmanəti olub, Şuşanın qədim tarixi də, qədim tarixin qalıqları da (ermənilikdən sağ çıxanlar da var), Şuşalı dünyanın ecazkarlığı da...

Şuşa 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" kimi neçə-neçə beynəlxalq tədbiri tarixləşdirdi, tarixləşdirəcək də, tarixdə də yaddaşlarda da...

**Mayor**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**

# Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 250 mənzil verilib



*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə Bakı şəhərinin Bibiheybət qəsəbəsindəki yeni yaşayış binasından 250 mənzil təqdim edilib.*

4 saylı DOST Mərkəzində mənzillərin sənədlərini əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, nazirlik yanında İctimai şuranın sədr müavini, "Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları" İctimai Birliyinin sədri Bəhruz Məmmədzadə və şuranın üzvü, "Qarabağ Qaziləri" İctimai Birliyinin İdarə Heyətinin üzvü Rey Kərimoğlu təqdim ediblər.

V.Nəsirli bildirib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi



44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib.

Dövlət başçısının tapşırığı ilə bu il ən azı 1500 mənzil və fərdi evin verilməsi işləri aparılır. Hazırda təqdim edilən mənzillər də daxil olmaqla, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara bu il artıq 1100, postmüharibə dövründə 5 min 600, ümumilikdə ötən dövrdə 14 min 400 mənzil və fərdi ev verilib.

Prezidentin Sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunurlar.



B.Məmmədzadə və R.Kərimoğlu həssas əhali qruplarından olan şəxslərin, xüsusilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşlarımızın daim diqqət və qayğı ilə əhatə olunduqlarını vurğulayıblar.

Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən yüksək qayğıya, həmçinin yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.



* * *

Zabit Famil Məlikov: Bizə verilən mənzil ailəmizin böyük sevincinə səbəb oldu.

Famil Məlikov 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseyi bitirəndən sonra müxtəlif bölgələrdə xidmət göstərib. 2015-ci ildən hərbi xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirən zabit 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olub. Vətən müharibəsinin, ilk günlərindən isə Kəlbəcər-Ağdərə yolunun bağlanılması əməliyyatlarının iştirakçısı olub.

Kəlbəcər istiqamətində beş gün döyüşdükdən sonra onları Cəbrayıl və Füzuli istiqamətində gedən döyüşlərə cəlb ediblər. Lələtəpə yaxınlığındakı mövqelərdən döyüşə başlayan Famil Füzuli istiqamətində Livandan gətirilmiş erməni əsilli terror birləşmələrinin yerinin aşkar edilməsində fərqlənib. Oktyabrın 5-də Cəbrayılın Şaybəy kəndi uğrunda gedən döyüşlərdə isə düşmən hərbçilərinin atdığı əl qumbarası onu boğazından yaralayıb.

"Qumbara ağciyərlərimə ciddi zədə vurmuşdu, üç qabırğam yaralanmışdı, bir müddət sonra hərəkət məhdudluğu ilə də üzləşdim, qabırğalarımdan birini itirməli oldum. Belə ağır zədədən sonra döyüş meydanına qayıda





bilmədim, uzun müddət hospital və xəstəxanalarda müalicə olundum. Müqəddəs yolda nəinki yaralanmağa, hətta həyatını itirməyə də dəyər. Mən buna da hazır idim. Lakin görünür, qismət belə imiş", - deyib.

"Azərbaycan Bayrağı" ordeninə, "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülən zabitə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi paytaxtın Bibiheybət qəsəbəsindəki yeni yaşayış binasından üçotaqlı mənzil verib.

Famil deyib: "Bu qayğıya görə hədsiz minnətdarlığımı bildirirəm. Neçə vaxt idi ki, ata-anam, həyat yoldaşım və iki qızımla kirayədə yaşayırdıq. Yeni il ərəfəsində belə bir hədiyyə bizim üçün çox sevindirici oldu".

* * *

Xəbər verdiyimiz kimi, bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə Bakının Bibiheybət qəsəbəsindəki yeni yaşayış binasından 250 mənzil təqdim edilib.

Bu da ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın ailə üzvlərinə, həmin döyüşlərdə yaralanaraq əlilliyi müəyyən olunmuş igid Vətən övladlarına böyük diqqət və qayğının növbəti təzahürüdür.

Beləliklə, Prezident cənab İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı uğurla davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, bu il onlara ən azı 1500 mənzilin verilməsi nəzərdə tutulub ki, artıq 1100 mənzil verilib.

Şəhidlərimizin yadigarları və müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşlarımız yeni yaşayış binasında onlara verilən mənzillərlə, habelə ərazidə yaradılan şəraitlə tanış olublar.

Yeni mənzil sevincini yaşayan şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən yüksək qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Ulu Öndərin 100 illiyinə həsr olunmuş viktorinaya yekun vuruldu



*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş əsgər, matros və kursantlar arasında keçirilən "İntellekt" adlı viktorinanın yekun mərhələsi başa çatdı, qalib komandalar müəyyənləşdi. Üç turdan ibarət olan və doqquz komandanın iştirak etdiyi viktorinanın əvvəlki mərhələləri də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində keçirildi. Yarış iştirakçıları öz bilik və bacarıqlarını nümayiş etdirdilər.*

Bilik yarışmasının keçirilməsində əsas məqsəd kursant və əsgərlərin asudə vaxtının səmərəli təşkili, intellektual səviyyəsinin inkişaf etdirilməsi, dünyagörüşlərinin artırılması, xalqımızın milli-mənəvi dəyərlərinin öyrənilməsi və maarifləndirmə işinin əhəmiyyətinin yüksəlməsinə önəm verməkdir.

Bilik yarışmasında Heydər Əliyev adına Hərbi İnstitutun və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları, Bakı Qarnizonunun hərbi hissələrindən əsgərlər və matroslar iştirak etdilər.

Viktorina Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra başladı.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mədəni-bədii iş üzrə təlimatçısı Gülxar Məmmədova Ulu Öndərin çağdaş Azərbaycanın ordu quruculuğuna verdiyi töhfələrdən danışdı: "1969-cu ildə respublika rəhbərliyinə gəldiyi ilk gündən dahi şəxsiyyət Heydər Əliyev dövlət siyasətinin digər sahələri kimi, hərbi quruculuq məsələlərinə, milli hərbi kadrların formalaşması üçün hərbi təhsilin zəruriliyinə, keçmiş ittifaqın ali məktəblərinə azərbaycanlı gənclərin daxil olmasına, Bakıda yerləşən ali hərbi məktəblərdə azərbaycanlı kursantların sayının artırılmasına xüsusi diqqət yetirmişdir. 1971-ci ildə Ulu Öndərin uzaqgörənliyi və müdrikliyi sayəsində Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail olunub. Bu məktəb o məktəbdir ki, milli ordunun zabit kadrları ilə təmin olunmasında dəyərli xidmətlər göstərib. Bütün həyatını xalqına, onun xoşbəxt gələcəyinin qurulmasına həsr edən dahi şəxsiyyət Heydər Əliyev ömrünün sonuna kimi Azərbaycanın qüdrətli hərbi qüvvələrinin təşkili üçün orduya, hərbi kadrlara diqqət və qayğısını əsirgəmədi".

Viktorinanın yekun mərhələsi üç komanda - "N" hərbi hissəsinin əsgərləri, Hərbi Dəniz Qüvvələrinin matrosları və Heydər Əliyev adına Hərbi İnstitutun kursantları arasında keçirildi. Viktorinanın sualları müxtəlif mövzuları əhatə edərək, şəxsiyyətlər, elm, incəsənət, mədəniyyət, tarix və ədəbiyyatla bağlı tərtib olunmuşdu. Böyük maraqla izlənilən viktorinanın yekun mərhələsində komandaların üzvləri verilən sualları cavablandıraraq, üç mərhələdə aparılan yarışmanı böyük həyəcanla başa vurdular. Sualların doğru cavabları hesablanaraq birinci, ikinci və üçüncü yerlər müəyyənləşdi.

Birinci yerin qalibi Hərbi Dəniz Qüvvələrinin matrosları, ikinci yerdə Heydər Əliyev adına Hərbi İnstitutun kursantları, üçüncü yerdə isə "N" hərbi hissəsinin əsgərləri elan edildilər.

Sonda Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr olunmuş "İntellekt" adlı bilik yarışmasında qalib gələn komandalara fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edildi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda "Ən yaxşı psixoloq" müsabiqəsi keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin tədbirlər planına əsasən, Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri, birlik, birləşmə və əlahiddə hərbi hissələr, eləcə də xüsusi təyinatlı təhsil müəssisələri üzrə təqdim edilən qaliblər arasında ilin "Ən yaxşı psixoloq"u müsabiqəsi keçirilib.

Müsabiqənin keçirilməsində məqsəd hərbi psixoloqların ixtisas hazırlığı ilə bağlı bilik və bacarıqlarının artırılması, psixoloji işə aid metod və vasitələrin düzgün tətbiq olunmasıdır.

Müsabiqənin şərtlərinə görə ən yüksək nəticə göstərmiş hərbi psixoloqlar arasında qalib müəyyənləşib.



# ANAMA: Vətən müharibəsindən sonra 337 Azərbaycan vətəndaşı mina qurbanı olub

Vətən müharibəsindən sonra mina partlayışı nəticəsində 337 Azərbaycan vətəndaşı mina qurbanı olub.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi" mövzusunda keçirilən konfransın panel müzakirəsində Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) Maarifləndirmə, beynəlxalq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Ramil Əzizov söyləyib.

O bildirib ki, ermənilər yalnız döyüş zonasında deyil, eyni zamanda, evlərdə, mülki təyinatlı ərazilərdə də mina və digər partlayıcı qurğular basdırıblar. Əməliyyatlar zamanı aşkarlanan hərbi sursatların əksəriyyəti Ermənistan istehsalı olan piyada əleyhinə minalardır.

*Nümunəvi xidmət*

# “Biz döyüşlərdə möhkəmləndik”



*Aslan 44 günlük Vətən müharibəsi başlayanda 4-cü kursda oxuyurdu. Həmin günlərdə heç düşünməzdi ki, qəflətən müharibə başlayacaq, o da yoldaşları ilə birgə kiçik leytenant rütbəsi alaraq əvvəlcə təlim poliqonuna, oradan da döyüş bölgəsinə yola düşəcəklər...*

28 il öncə də yenicə formalaşan Azərbaycan Ordusunun tarixində belə məqamlar olmuşdu. 27 sentyabr 2020-ci ildə həmin tarix təkrar yaşandı. Birinci Qarabağ müharibəsi zamanı o vaxtkı Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin sonuncu kursunun kursantlarına kiçik leytenant hərbi rütbəsi verilib cəbhəyə göndərilmişdilər. Vətən çağıranda, Vətənin başının üzərini qara buludlar alanda, Ali Baş Komandanın "Döyüş" əmri kursantlara kifayət etmişdi. Kursantlar - elin, obanın igid, qorxmaz oğulları "Hər şey Vətən üçün, hər şey Vətən naminə" çağırışına səs verərək döyüşə atılmışdılar.

Gənc zabit Aslan Əzizov da Vətənin çağırışına səs verənlərin sırasında olub. Sələflərinin şərəfli döyüş yolunu yoldaşları ilə birlikdə o da uğurla davam etdirib. Qarşıya qoyulan döyüş tapşırıqlarının yerinə yetirilməsində bacarıq və cəsarət göstərib.

Aslan Mehdi oğlu Əzizov 20 dekabr 1999-cu ildə Masallı rayonunun Qədirli kəndində müəllim ailəsində doğulub. 14 yaşından hərbi sahəyə böyük marağı yaranıb. Bu marağın təsirindən 2014-cü ildə o, sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verir. Şərəfli kursant adını daşımaq Aslana da qismət olur. O, liseydə oxuduğu müddətdə hərbi vərdişlərə dərindən yiyələnir. Müəllimlərinin və kursant yoldaşlarının rəğbətini qazanır. Hərbi liseyi uğurla başa vuran Aslan 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (İndiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olur. Burada oxuduğu müddətdə də hərb sənətinin sirlərini mənimsəməyə, döyüş hazırlığını, o cümlədən mənəvi-psixoloji və fiziki hazırlıqlarını daima artırmağa çalışır. Hərbi peşənin incəliklərinə yiyələnmək, işğalda qalmış torpaqlarımızın azadlığı uğrunda gedəcək döyüşlərdə iştirak etmək Aslanın ən böyük arzusu idi. Dördüncü kursa keçəndə onun arzusu reallaşır. Sonuncu kursun kursantlarına “kiçik leytenant” hərbi rütbəsi verilərək cəbhəyə göndərilir. Onların sırasında Aslan da var idi...

Leytenant Aslan Əzizovla xidmət etdiyi hərbi hissədə görüşüb söhbət apardım. Hərbi peşəni seçməsində dayısının da rolu olduğunu, onun hərbi geyiminə, xidməti silahına həmişə böyük maraqla baxdığını dedi Aslan. "Hərbi peşə nə qədər çətin olsa da, o qədər də şərəflidir, müqəddəsdir. Bu peşə Ana Vətənimizi, torpağımızı qorumaq peşəsidir. Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunun hərbi qulluqçuları qaynar döyüşlərin önündə irəlilədilər. İllərlə erməni faşizminin dağıtdığı şəhər və kəndlərimiz onların qəhrəmanlığı, igidliyi sayəsində işğaldan azad olundu. Biz gənc zabitlər poliqonda səfərbərliklə çağırılan şəxsi heyətə qısa müddətdə təlim keçərək, taqımın komplektləşdirilməsi üçün gecə-gündüz çalışırdıq. Bilirdik ki, taqım döyüş gedən istiqamətlərə göndəriləcək. Bir neçə gündən sonra taqım cəbhəyə yola düşdü. Zəngilan, Qubadlı, Laçın rayonları istiqamətində gedən döyüşlərə qatıldıq. Axırıncı döyüşümüz Laçın rayonunun Güləbird kəndi istiqamətində oldu. Ərazilərimiz kənd-kənd azad olundu. Təəssüf hissiylə onu da qeyd edim ki, yoldaşlarımızdan beş nəfər şəhid oldu. Xoşbəxt zabitlərdənəm ki, mən də Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərin iştirakçısı oldum. Biz döyüşlərdə möhkəmləndik. Dekabrın 26-da Bakıya qayıtdıq. Təhsilimizi “kiçik leytenant” hərbi rütbəsində davam etdirib, “leytenant” rütbəsi ilə başa vurduq. 2021-ci ildən bu hərbi hissədə xidmət edirəm. Döyüşlərdə qazandığım təcrübəni böyük həvəslə, qürurla tabeliyimdə olan şəxsi heyətə aşılayıram. Sentyabrda həyata keçirilən əməliyyat tədbirlərində də iştirak etdim. Şəhidlərimizin, müharibə iştirakçılarının şərəfli döyüş yolu hər birimiz üçün örnəkdir".

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə gənc zabit Aslan Əzizov "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medallları ilə təltif olunub.

İnanırıq ki, döyüşlərdə möhkəmlənən leytenant Aslan Əzizov gələcəkdə də nümunəvi xidməti ilə fərqlənəcək, döyüş hazırlığını daha da artıracaq, qalib Azərbaycan Ordusunun daha da qüdrətlənməsinə öz töhfəsini verəcək qətiyyətli, peşəkar zabitlərimizdən biri olacaq.

**Lalə HÜSEYNOVA**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# İki payız, iki tarix və ruhumuzun Zəfər fəsli

*Sabiq SSRİ dönəmində mövcud müttəfiqlik şərtlərinə, siyasi qərarlarına məhəl qoymayan Ermənistan Mərkəzin liberallığından, Azərbaycanın rəhbərliyinin qətiyyətsizliyindən istifadə edərək 1984-cü ilin oktyabrında Qazax rayonunun ərazisindən 1675 hektar ərazini öz ərazisinə birləşdirməyə nail olmuşdu. Bu üsul ittifaq birgəyaşayışı ilə səsləşməsə də, adı qarşılıqlı razılaşma olan cəbrən razılaşma olmuşdu. 14 ildən sonra İttifaqda yaranmış ideoloji boşluqdan istifadə edən ermənilik yeni ərazilərə yiyələnmək niyyəti ilə əvvəlcə Naxçıvanın, sonra Qarabağın dağlıq hissəsini ilhaqa vasitə etdi. Xalqın mübarizə ruhu bu niyyətin gerçəkləşməsinə imkan vermədi. Sonra nələr oldu? - Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başladı. Müharibə müddətində Bağanis-Ayrım, Başlıbel, Ağdaban, Qaradağlı, Malıbəyli, Quşçular, Qarakənd, Xocalı faciələrini törətdi, torpaqlarımızın 20 faizini işğal etdi...*

Sonra nə oldu? - Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədi; ATƏT-in Minsk Qrupunun icraçılığı ilə aparılan danışıqlardan yayındı. Azərbaycan gerçəkliklərini görən dövlətlər erməniliyi pisləyirdi, işğalçının havadarları həm susurdu, həm də ona siyasi və hərbi yardım göstərirdilər...

Belə bir şəraitdə

***Əsgərləşdi xalqın ruhu***
***yağılığı döyə-döyə,***
***İlk gülləni atan düşmən***
***Təslim oldu son gülləyə...***

**Birinci payız.**

Ermənistan bilirdimi dünya belə qalmayacaq...

Ermənistan silahlı birləşmələri Azərbaycanın ərazilərində müxtəlif miqyaslı təxribatlar törədirdi. Bu təxribatlar təkcə danışıqlardan yayınma vasitəsi deyildi, həm də yeni ərazilər işğal etmək niyyəti idi. Ermənistan işğalçılıq niyyətini terrorlarla davam etdirmək istəyirdi. Belə terrorlardan birini 2020-ci il sentyabrın 27-də törətmək istədi. Azərbaycan Ordusunun hissələri təxribatın (əslində hücumun) qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın döyüş əmri ilə əkshücuma keçdi. Bu döyüşlər İkinci Qarabağ müharibəsinin, mahiyyəti etibarilə Vətən müharibəsinin başlanğıcı oldu. Azərbaycan Ordusu düşmənin işğal müddətində yaratdığı, bütün mühəndis vasitələrindən istifadə etməklə möhkəmləndirdiyi, yeniliklərdən bəhrələnməklə təkmilləşdirdiyi müdafiə sədlərini (ermənilər bu sədləri "Ohanyan səddi" adlandırırdılar) darmadağın etdi, ordumuzun piyadalarının hücumu üçün əlverişli şərait yarandı. Azərbaycan əsgəri döyüşə-döyüşə mövqe qələbələri qazanırdı...

İkinci Qarabağ müharibəsindən əvvəl ön xətdə döyüş növbətçiliyindən qayıtmış əsgər demişdi ki, biz döyüş növbətçiliyindən döyüşə getmək istəyirik. Həmin əsgərlə Zəfərdən sonra işğaldan azad edilmiş Kəlbəcərdə yenidən görüşdük. Kələmələşəndə dedi ki, Vətən müharibəsində ilk güllələri atanda bir qədər həyəcanlı idim. Düşünürdüm ki, görəsən, güllələrim hədəfə dəyirmi? Qarşı tərəfdə atışın zəiflədiyini hiss edəndə həyəcanım sovuşdu. Daha inamla döyüşdük.

Ön xətdə döyüş növbətçiliyinə getməyə hazırlaşan əsgər demişdi ki, babam Birinci Qarabağ müharibəsində Daşaltıda şəhid olub. Əgər döyüş yolumuz o səmtə olsa, Daşaltıda mən də döyüşəcəm, Daşaltını təmizləyəndən sonra Şuşa uğrunda döyüşəcəm. Həmin əsgər Daşaltıda döyüşmüşdü, yaralandığını kimsəyə bildirməmişdi, Şuşa uğrunda gedən döyüşlərdə də iştirak etmişdi. Noyabrın 5-də Şuşa uğrunda şəhid olmuşdu...

Azərbaycan Ordusunun Şuşaya Şuşanın dağlarından keçərək yaxınlaşması da, düşməni haqlaması da, döyüşməsi də, qalib gəlməsi də bizim qürurumuza, düşmənin havadarlarının heyrətinə döndü. Vətən müharibəsi bütövlükdə, Şuşa döyüşləri ayrılıqda qüdrət kimi tarixləşdi.

Düşmən güman edirdi ki, Azərbaycan Ordusunun hissələri Şuşaya Qırmızı Bazar şəhərciyi tərəfdən gələcək. Ona görə də əsas qüvvələrini bu səmtə cəmləmişdi. Buradan Şuşakəndə, oradan da Şuşaya yol belədi. Düşmən Azərbaycan Ordusunun Laçın istiqamətindən gələ biləcəyini də güman edirdi. Azərbaycan Ordusunun komandanlığı bu gümanları gerçəkləşməsinə, düşmənin fəal müdafiəsinə imkan vermədi. Hərbçilərin təbirincə desək, miqyasına, planına və ardıcıllığına görə misli görünməmiş qərar verdi: Şuşaya sıx Qarabağ meşələrindən yeni yol açılsın. Böyük Tağlar kəndindən meşələrlə Şuşaya, Çanaxçı və Sığnax kəndlərinə tərəf yol açıldı. Döyüşlər gedə-gedə! Mühəndis-istehkamçılarımız dar dağ cığırını texnikanın hərəkət edə biləcəyi meşə yoluna çevirdilər. Azərbaycan bölmələri artilleriya qurğularını Çanaxçı ətrafında cəmləşdirə bildi. Dağ piyadalarımız qətiyyət işığına döndü, düşmən pusquya düşdü və son...

Döyüşçülərimiz Şuşanın meşələrinə çatıb müdafiə xətti yaratdılar. Həmin anlarda düşmən üç dəfə həmlə eləmişdi. Həmlələrin üçü də dəf edilmişdi. Döyüşçülərimiz Şuşa İcra Hakimiyyətinin binasını ələ keçirdilər. Müqavimət göstərənləri məhv etdilər, qaçanlar təqib olundular. Son həddə yaxın məsafədən, sözün əsl mənasında, binalar arasında gedən döyüşlərdə binaları, əraziləri düşməndən təmizlədilər.

"Natsionalnaya Oborona" jurnalında bir məqalə dərc edilmişdi: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhid çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar". Bu məqalə Şuşa uğrunda döyüşlərin hərbi təsviridi. Həm də döyüş fəlsəfəsi üçün gərəkli tezisdi...

8 Noyabr Zəfər Günü oldu...

Vətən müharibəsi payızda başladı, tarixi Zəfər payızda qazanıldı...

***Dan yerinə sığışmayan***
***Səhər ilə gəldi payız***
***Azərbaycan dünyasına***
***Zəfər ilə gəldi payız...***

**İkinci payız.**

Zəfərdən sonra məğlub Ermənistanın dağılmış ordusunun qalıqları da Xankəndidə, onun ətraflarında cəmləşmişdi. Bu qüvvələr də, separatçı adlandırılan hərbi qüvvələr də Ermənistandan idarə edilirdi. İşğaldan azad olunmuş ərazilərdə, əsasən Kəlbəcərdə, Laçında təxribatlar bu birləşmiş qüvvələr törədirdi; üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməyən Ermənistanın Baş naziri Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf etmişdi, ancaq Azərbaycanın ərazisinin bir hissəsi olan Qarabağda - işğaldan azad edilmiş ərazilərdə yenə terrorlar, təxribatlar törədilirdi. Azərbaycan Ermənistanda idarə edilən terror şəbəkəsini ləğv etmək, ərazi bütövlüyünü tamlaşdırmaq üçün 2023-cü il sentyabrın 19-da əməliyyat tədbirləri keçirməyə başladı. Öz ərazisində bu tədbirləri (belə tədbirləri) keçirmək Azərbaycanın Konstitusion hüququ idi. Həm də beynəlxalq hüququn normaları əsasında aparılırdı: mülki əhali, mülki obyektlər hədəfə alınmırdı.

Əməliyyat tədbirlərinə kimi Azərbaycan Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsi yaratmışdı. Bu, müharibədən sonrakı dövr üçün (həm də Ermənistan kimi bir dövlətlə həmsərhəd olan dövlət üçün!) gərəkli dövlətçilik təsisatı kimi əməliyyatın ilk mərhələsi idi - terrorçuların Xankəndiyə gəlişi, çıxışı birdəfəlik dayandırılmışdı, axtarışda olan erməni əsilli müharibə canilərinin saxlanılması, cəzalandırılması üçün hüquq-mühafizə orqanlarına təhvil verilməsi ehtimalı gerçəkləşmişdi.

Əməliyyat tədbirləri sentyabrın 19-da keçirildi. Düşmənin komanda məntəqələri, hava hücumundan müdafiə sistemi sıradan çıxarıldı, 235 hava hücumundan müdafiə vasitələri dağıldıdı, 61 artilleriya silahı, 26 zirehli texnikası, onlarla döyüş texnikası və yüzlərlə hərbi qulluqçusu məhv edildi. Sentyabrın 20-də Azərbaycanın şərtlərinə əməl edildi - Xankəndidə ağ bayraq qaldırıldı, terrorçu qüvvələr tərk-silah edildi, qısa müddətdə Ağdərə, Əsgəran, Xocalı düşməndən təmizləndi...

Əməliyyat tədbirləri qələbə ilə başa çatdı ...

Əməliyyat tədbirləri payızda keçirildi, Zəfərin davamı kimi qələbə qazanıldı...

Qəlbitəmizlər Azərbaycan əsgərinə xitabən deyir ki,

***"Ana", "Vətən", "Ana Vətən"***
***deyənlərin qardaşısan, Qədim-qədim məmləkətə***
***məhəbbətdi Zəfərimiz. Döyüş andın Vətən oldu, Vətən üçün döyüşdünüz, Bu qüdrətlə vətənləşən sədaətdi Zəfəriniz.***
***Şəhidlikdən keçən döyüş tarixə tarix dərsidi, Bu tarixdən tarixlərə əmanətdi Zəfəriniz.***

...və ruhumuzun Zəfər fəsli. Təbiətin payız fəsli həm də ruhumuzun Zəfər fəsli oldu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### İsrail və HƏMAS atəşkəsin növbəti dəfə uzadılması barədə razılığa gəliblər



İsrail və HƏMAS humanitar atəşkəsin növbəti dəfə uzadılması barədə razılığa gəliblər.

AZƏRTAC xəbər verir ki, bu barədə "Wall Street Journal" Misir rəsmilərinə istinadən məlumat yayıb.

Bildirilib ki, İsrail və HƏMAS atəşkəsi daha bir gün uzadacaqlar. Razılaşma HƏMAS-ın çərşənbə günü növbəti - altıncı girov qrupunu azad etməsindən sonra əldə olunub.

Ötən gün qarşılıqlı girov mübadiləsi həyata keçirilib. 6 israilli, 30 fələstinli girov azad edilib.

### "Ariane-6" raketinin ilk uçuşu 2024-cü ilin yayına planlaşdırılıb



Yeni "Ariane-6" raket daşıyıcısının ilk uçuşu 2024-cü ilin yayına planlaşdırılıb. Mütəxəssislər hazırda bu tarixi təxirə sala biləcək əhəmiyyətli maneələr gözləmirlər.

Bu barədə Avropa Kosmik Agentliyinin Baş direktoru Yozef Aşbaher mətbuat konfransında bildirib. O deyib: "İndiki proqnozları dəyişə biləcək hər hansı maneələr gözləmirik. "Ariane-6" raketinin ilk uçuşunun gələn il 15 iyun-31 iyul tarixləri arasındakı dövrdə təşkil olunacağını planlaşdırırıq".

Jurnalistin dəqiq tarixin nə vaxt olacağı barədə sualını Aşbaher belə cavablandırıb: "Göstərilən dövrdə ən erkən tarix iyunun ortasına düşür".

Mətbuat konfransında o da bəyan edilib ki, ilk olaraq "Ariane-62" modifikasiyalı raket - iki sürətləndiriciyə malik daha yüngül versiyalı raket buraxılacaq.

Avropa Kosmik Agentliyinin Baş direktoru etiraf edib ki, yeni raket daşıyıcısının işlənib hazırlanması ilə bağlı vəziyyət böhranlı idi və onun ilk uçuşuna hazırlıq dövründə həm agentliyin özünün, həm də "Arianespace"in idarəetmə strukturunda dəyişikliklər aparmalı oldular. O, layihə ilə bağlı bütün problemlərin həllində ictimaiyyətlə əlaqələrdə də səhvlər buraxıldığını söyləyərək, bundan sonra layihə barədə daha ətraflı məlumat veriləcəyini vəd edib.

### Ötən il Aİ ölkələrinin hərbi xərcləri 240 milyard avro təşkil edib



Avropa İttifaqı ölkələrinin hərbi xərcləri 2022-ci ildə 6 faiz artaraq rekord həddə - 240 milyard avroya çatıb.

Bu barədə Avropa Müdafiə Agentliyinin məlumatında deyilir.

Məlumata görə, Avropa İttifaqına üzv 27 ölkədən 20-si müdafiə xərclərini artırıb. Altı ölkədə artım 10 faizdən çox olub. NATO-ya üzvlüyü gözlənilən İsveçdə bu göstərici 30,1 faiz, Lüksemburqda 27,9 faiz, Litvada 27,6 faiz, İspaniyada 19,3 faiz, Belçikada 14,8 faiz, Yunanıstanda isə 13,3 faiz təşkil edib. İttifaqın bütün hərbi xərclərin təxminən altıda biri - 58 milyard avro yeni silah növlərinin alınmasına yönəlib.

Bu xərclərin hansı hissəsinin Ukrayna üçün hərbi yardıma ayrıldığı barədə məlumat verilmir. Bir müddət öncə Avropa İttifaqının xarici siyasət idarəsinin rəhbəri Jozep Borrel qurumа üzv ölkələrin Ukraynaya 27 milyard avro dəyərində silah tədarük etdiyini və bunun 2022-ci ildə bütün hərbi xərclərin 11 faizinə çatdığını bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

# Qəhrəmanlıqları ilə dastan yazan şəhidlərimiz

Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan rəşadətli Azərbaycan Ordusu bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən regionun ən güclüsünə çevrilərək, dünya orduları sıralarında yer alır. Aprel döyüşləri, Günnüt əməliyyatı, Tovuz hadisələri, Vətən müharibəsi və ən son həyata keçirilən əməliyyat tədbirləri bir daha bütün dünyaya nümayiş etdirdi ki, ordumuz istənilən döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlməyə qadirdir. Bu qələbələri isə bizlərə yaşadan qəhrəman şəhidlərimiz oldu. Onlar qorxu bilmədən, düşmən üzərinə irəliləyib, tarixi torpaqlarımızı gerçək sahibinə qaytardılar.

Vətən uğrunda canından keçən qəhrəmanlarımıza dövlətimiz və xalqımız tərəfindən hər zaman yüksək ehtiram göstərilir. Şəhid ailələrinə isə diqqət və qayğı dövlət rəhbərliyinin fəaliyyətində həmişə prioritet məsələ kimi qalır və uğurla davam etdirilir. Bu məsələ Müdafiə Nazirliyinin də daim diqqət mərkəzindədir. Hərbi hissələrdə şəhidlərin xatirəsinə abidələr ucaldılır, hərbçilərə şəhidlərimizin döyüş yolu haqqında məlumatlar verilir və onların döyüş yolunun xatırlanması istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir.

"N" hərbi hissəsində baş leytenant Fərahim Baratoğlu şəhidlər abidəsinin önündə gənc əsgərlərə Vətən torpaqları uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn qardaşlarımızın qəhrəmanlığı, qorxmazlığı, vətənpərvərliyi haqqında maarifləndirici söhbət edirdi. Zabit bildirdi ki, Vətən uğrunda ölmək, şəhadətə yüksəlmək ölümlərin ən şərəflisidir. "Vətənimizin müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəfdir. Vətəni göz bəbəyi kimi sevmək, qoynunda boya-başa çatdığın torpağın müqəddəsliyini hiss edib yolunda canından keçməyə hazır olmaq isə ən müqəddəs duyğudur. Müqəddəs amal uğrunda şəhid olmaqla əbədiyyətə qovuşan igidlərimiz döyüşlərdə mənfur düşmənə ağır zərbə vurmaqla layiqli dərs verməklə, qəhrəmanlıq salnaməsinə adlarını qızıl hərflərlə yazdılar".




Söhbətinə davam edən zabit bildirdi ki, Azərbaycan Ordusunun həyata keçirdiyi bütün döyüş əməliyyatları isə dediklərimizin əyani sübutudur. "Belə ki, Vətən müharibəsinin ilk günündən etibarən mətin addımlarla irəliləyən oğullarımız erməni hərbi birləşmələrinin müdafiə xəttini yararaq işğal altında olan bir neçə yaşayış məntəqəmizi işğaldan azad etdilər. Qarşısında əngəl tanımayan igidlərimiz hər gün daha da irəliləyirdilər. Dəqiq hesablamalar apararaq düşmənin atəş nöqtələri, mövqeləri, sığınacaqları, hərbi təyinatlı obyekt və texnikaları artilleriyaçılarımız tərəfindən məhv edilirdi. Hərbçilərimizin güc və qüvvətini görən düşmən isə qaçmaqdan başqa çıxış yolu tapa bilmədi. Bunun nəticəsidir ki, cəmi 44 gün ərzində 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Azərbaycan xalqına həsrətlə gözlədiyi Böyük Qələbə gününün sevincini rəşadətli ordumuz bəxş etdi. Əlbəttə, bu tarixi qələbəni bizlərə yaşadan şəhidlərimiz oldu. Onlar Vətən qarşısında olan övladlıq borcunu layiqincə yerinə yetirdilər. Şəhidlərimizin xatirələrini əziz tutmaq, onların adlarını əbədiləşdirmək isə hər bir azərbaycanlının ən müqəddəs vəzifəsi və vətəndaşlıq borcudur".

Zabit, həmçinin qeyd etdi ki, torpaqlarımızın qorunması yolunda canlarından keçmiş şəhidlərimizin qəhrəmanlıq yolu gənclərimizə örnəkdir. Hər bir Azərbaycan vətəndaşı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənməlidir. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək isə hər kəsin vətəndaşlıq borcudur. Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını belə qurban verərək ən uca zirvəyə - şəhidlik məqamına ucalanların xatirəsini anmağa borcluyuq. Çünki torpaqlarımızın bütövlüyü, ərazilərimizin toxunulmazlığı uğrunda canlarından keçən Vətən övladları sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər. Vətənpərvərlik tərbiyəsi də buradan başlayır. Gənclər də öz Vətəninə sevgi və məhəbbət hissinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün şəhidlərimizin keçdiyi döyüş yolunu onlara çatdırmalı, hansı vasitə ilə olursa-olsun, bu yolda var gücümüzlə çalışmalıyıq.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Təlim meydanlarında mətinləşən sürücü-mexanik

Tarixi Zəfərin qazanılmasında bütün qoşun növləri ardıcıl olaraq üzərinə düşən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirib. Qazandığımız Zəfər məhz bunun təntənəsi idi. Döyüşdə əldə olunan hər bir uğurun arxasında gərgin təlimlərin nəticələri dayanırdı. O təlimlər ki, bu gün də əsgərlərimiz döyüş təcrübələrini artırmaqdadırlar.

Təlim meydanındayıq, fəth ediləcək yüksəkliklər və hədəflər məlumdur. Tanklar, piyada döyüş maşınları, artilleriya qurğuları və piyada bölmələri öz yerlərində hazır dayanıblar. Yaxınlıqda əraziyə uyğun maskalanmış PDM dayanıb. Piyadanın döyüş maşını tam tərkibdə aidiyyəti üzrə yuxarı komandanlığın tapşırığını qəbul edir və heyət ona uyğun fəaliyyət qururdu. Gizir Elçin Əliyevin komandiri olduğu piyadanın döyüş maşını Qarabağın azad edilməsi istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Buna baxmayaraq onlar yenə də döyüş təcrübələrini artırmaq məqsədilə təlim meydanındadırlar. PDM-in yanında ayaq saxladıq. Elə bu an maşının sürücü-mexaniki bizə yaxınlaşdı. Bu piyadanın döyüş maşınının sürücü-mexaniki müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Asif Məmmədovdur. Əsgərin çöhrəsindəki səmimiyyət, təbəssüm dolu baxışlar onun təlimə hansı ovqatla qatıldığından xəbər verirdi.

Görüşüb tanış oluram. Yevlax rayonunun Aran qəsəbəsində anadan olub. Əsgər Asif Məmmədov 2008-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi xidmət edir.

"Hərbi xidmətdən yenicə qayıtmışdım. Cəbhə bölgəsində düşmənlə təmas xəttində xidmət etmişdim. Qərara gəldim ki, zirehli maşının sürücü-mexaniki olum. Bu məqsədlə sənədlərimi hərbi hissəyə təqdim etdim. Çox keçmədi fiziki hazırlıqdan və testlərdən imtahan verdim. Uğurlu nəticə əldə edib, ordu sıralarına qəbul olundum. Daha sonra ixtisas hazırlığı kursu təşkil olundu. Kursu da yüksək nəticələrlə başa vurub xidmət yerinə qayıtdım. Xidmət dövründə dəfələrlə fərqlənmişəm. Sevinirəm ki, döyüş əməliyyatlarında da iştirak etmişəm", - deyə Asif Məmmədov bildirdi.

Əsgər Asif Məmmədov Aprel döyüşlərinin, İkinci Qarabağ müharibəsinin və bu ilin sentyabrın 19-da keçirilən əməliyyatın iştirakçısı olub. Qarabağın və digər ərazilərimizin erməni işğalından azad edilməsində iştirak etmək arzusunda olan Asif Suqovuşan uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Həmçinin Kəlbəcər və Ağdamın azad olunması istiqamətində gedən döyüşlərdə vuruşub.




Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə əsgər Asif Məhərrəm oğlu Məmmədov döyüşlərdə göstərdiyi igidliyə görə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Təlimlərə gəlincə, Asif dedi ki, hərbi xidmətə başladığı ilk günlərdən təlim meydanlarına cəlb olunub. Döyüşatışlı təlimlərdə mükəmməl iştirak edib. O, bu kimi təlimlərdə əsgərlərin daha da peşəkarlaşdığını əminliklə qeyd etdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

### "Köhlən atlar" Konfrans Liqasının pley-offuna vəsiqəni təmin edib



"Qarabağ" UEFA Avropa Liqasının qrup mərhələsində növbəti oyuna çıxıb.

Ağdam təmsilçisi H qrupundakı beşinci matçında Norveçdə "Molde"nin qonağı olub. "Aker" stadionunda oynanılan qarşılaşmada qalib müəyyənləşməyib - 2:2.

Hesabı 11-ci dəqiqədə Ağdam klubunun heyətində Juninyo açıb. İkinci yarıya daha yaxşı başlayan norveçlilər iki top vuraraq hesabı öz xeyirlərinə dəyişiblər. Kristian Eriksen 82 və 87-ci dəqiqələrdə fərqlənib. Son nöqtəni isə 90+5-ci dəqiqədə Bəhlul Mustafazadə qoyub.

Bu nəticədən sonra "Qarabağ" xallarını 7-yə çatdıraraq ikinci pillədəki mövqeyini qoruyub. "Köhlən atlar" ən pis halda Konfrans Liqasının pley-offuna vəsiqəni təmin edib. Altı xalı olan "Molde" isə üçüncü sırada qalıb.

Qrupun digər matçında isə Almaniya "Bayer"i İsveçdə "Hekken"i 2:0 hesabı ilə məğlub edib.

### Hərbçilər arasında güləş üzrə dünya çempionatında ikinci günün qalibləri mükafatlandırılıb




Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Bakıda təşkil olunan hərbçilər arasında güləş üzrə 36-cı dünya çempionatında ikinci günün qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

"Sərhədçi" İdman Mərkəzində keçirilən tədbirdə qaliblərə medal və kubokları Dövlət Sərhəd Xidmətinin rəis müavini Rəsul Tağıyev təqdim edib.

Yarışın ikinci günündə Azərbaycan idmançıları 2 qızıl, 1 gümüş medal qazanaraq Dövlət Bayrağımızı ucaldıb, Himnimizi səsləndiriblər.

Güləşçilərimiz Orxan Abbasov (79 kiloqram) və Ruzanna Məmmədova (59 kiloqram) rəqiblərini məğlubiyyətə uğradaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Ceyhun Allahverdiyev (61 kiloqram) isə türkiyəli Ahmet Dumana məğlub olaraq gümüş medalın sahibi olub.

Turnirin ilk günündə Əli Rəhimzadə (65 kiloqram), Hacı Əliyev (70 kiloqram), Turan Bayramov (74 kiloqram) və İbrahim Yusubov (92 kiloqram) qızıl medal qazanıblar. Elnurə Məmmədova (52 kiloqram) ikinci, Nərgiz Səmədova (50 kiloqram) isə üçüncü yerləri tutublar.

Bununla da Azərbaycan təmsilçiləri medalların sayını 9-a çatdıraraq komanda hesabı ilə birinci pillədə qərarlaşıblar.

Dünya çempionatı dekabrın 3-də başa çatacaq.

### Azərbaycan yığması FIFA reytinqində 6 pillə irəliləyib



FIFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.

Ötən ay ilə müqayisədə Azərbaycan yığması 6 pillə irəliləyib. Hazırda baş məşqçisi olmayan millimiz 1174.22 xalla 114-cü pillədə qərarlaşıb.

Son dünya çempionu Argentina 1855,44 xalla reytinq cədvəlinə başçılıq edir. Fransa (1845,44) ikinci, İngiltərə (1800,05) isə üçüncü yeri tutub. Millinin rəqibi Belçika (1798,46) dördüncü sıraya yüksəldiyi halda, Braziliya (1784,09) beşinci pilləyə düşüb.

Qeyd edək ki, yığma "Avro-2024"ün seçmə mərhələsində F qrupunda 7 xalla 4-cü sıradadır

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant İbrahim MƏMMƏDBƏYOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya №361 Sifariş №810 Nüsxə 4752 |